Azərbaycan Turizm və Menecment Universitetində Təlim prosesinin monitorinqinin təşkili

QAYDALARI

ATMU-KTŞ-Q(TPM)-01

BAKI - 2023

Dəyişikliklər haqqında məlumat			
Tarix	**Versiya**	**Tərtib etdi**	**Dəyişikliyin izahı**
01.02.2023	01	Zaur Bağırov Faina Qaçabəyova Sara Bağırlı	

Mündəricat

I. Ümumi müddəalar 1

II. Monitorinqin məqsədi və vəzifələri 1

III. Monitorinqin təşkili 2

IV. Monitorinq komissiyasının tərkibi və təşkili 2

V. Monitorinq iştirakçıları, onların hüquq və vəzifələri 3

VI. Yekun müddəalar 4

Əlavə 1. Monitorinq qrafiki 5

Əlavə 2. Qiymətləndirmə cədvəli 6



"Təsdiq edirəm"
Azərbaycan Turizm və Menecment Universitetinin
rektoru _____ İ.İ.Mədətov
14 fevral 2023-cü il

I. Ümumi müddəalar

1.1. Təlim prosesinin monitorinqinin təşkilinin Qaydaları (bundan sonra, Qaydalar) Azərbaycan Turizm və Menecment Universitetində (bundan sonra, Universitet) Təlim prosesinin monitorinqinin (bundan sonra, Monitorinq) təşkilati-hüquqi əsaslarını, Monitorinq prosesi iştirakçılarının hüquq və vəzifələrini tənzimləyir.

1.2. Monitorinq Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununa, Universitetin Keyfiyyət təminatı şöbəsinin Əsasnaməsi və digər müvafiq normativ-hüquqi aktlara uyğun olaraq həyata keçirilir. Monitorinq 2022/2023-cü tədris ilindən etibarən Keyfiyyət təminatı şöbəsinin təşkilatçılığı, Tədris-metodiki Şuranın qərarı və rektorun təsdiqi ilə həyata keçirilir.

II. Monitorinqin məqsədi və vəzifələri

2.1. Monitorinqin əsas məqsədi təlim prosesində professor-müəllim heyəti tərəfindən tətbiq olunan təlim strategiyaları, metod və alətlərin qiymətləndirilməsilə təlim, tədris, qiymətləndirmə və öyrənmə proseslərinin təkmilləşdirilməsi istiqamətində tövsiyələrin verilməsi, eləcə də akademik heyət arasında təcrübə mübadiləsinin aparılmasından ibarətdir.

2.2. Monitorinq aşağıdakı vəzifələrin həyata keçirilməsinə xidmət edir:

2.2.1. Tədris prosesinin obyektiv və səmərəli təşkil edilməsi ilə əlaqədar təlim prosesini qiymətləndirmək.

2.2.2. Professor-müəllim heyətinin səriştələrinin artırılması məqsədilə təlim ehtiyaclarını müəyyənləşdirmək.

2.2.3. Tədris, təlim, qiymətləndirmə və öyrənmə proseslərinin təkmilləşdirməsini nəzərdə tutan təklifləri rəhbərliyə təqdim etmək.

III. Monitorinqin təşkili

3.1. Monitorinq imtahan sessiyasının yekununda fənn üzrə ən yüksək və ən aşağı müvəffəqiyyət və keyfiyyət nəticələri nəzərə alınmaqla və ya tələbələrin rəy sorğusu nəticələrinin təhlili əsasında həyata keçirilir.

3.2. Monitorinq tədbirlərinin sayı hər semestr üzrə müəyyən edilmiş ən yüksək və ən aşağı müvəffəqiyyət və keyfiyyət göstəricilərinə uyğun olaraq təşkil edilir.

3.3. Zərurət yarandığı halda təkrar monitorinq təşkil oluna bilər.

3.4. Monitorinq bilavasitə tədris prosesi çərçivəsində təşkil olunur.

3.5. Monitorinq müvafiq fakültələrin təqdim etdiyi dərs cədvəlinə və kafedraların təqdim etdiyi akademik heyətin siyahısına uyğun olaraq planlaşdırılır və təşkil edilir.

3.6. Monitorinqin təşkili məqsədilə Əlavə 1-də göstərilmiş qaydada Monitorinq qrafiki hazırlanır.

IV. Monitorinq komissiyasının tərkibi və təşkili

4.1. Monitorinq keçirilməsi məqsədilə Monitorinq komissiyası yaradılır və qiymətləndirmə onun tərəfindən həyata keçirilir.

4.2. Monitorinq komissiyasının tərkibi kafedra tərəfindən təklif olunan siyahını nəzərə almaqla Keyfiyyət təminatı şöbəsi tərəfindən təşkil olunur və tədris işləri üzrə prorektorla razılaşdırılır.

4.3. Monitorinq komissiyası ən azı üç nəfər üzvdən təşkil olunur.

4.4. Komissiya üzvü olaraq iştirak edəcək akademik heyət üzvlərinə qoyulan tələblər aşağıdakı kimidir:

a) ali təhsil sahəsində beş illik pedaqoji stajının olması;

b) universitetdə ən azı ştat və ya yarım ştat akademik heyət üzvü olması;

c) elmi dərəcəli müəllimin fənnini monitorinq edən komissiyada ən azı 2 (iki) nəfər bənzər və ya yuxarı elmi dərəcəyə sahib olmalı;

d) monitorinq ediləcək fənnin tədris dilində pedaqoji fəaliyyətlə məşğul olması;

e) zərurət yarandığı halda digər ali təhsil müəssisələrindən də ekspertlərin cəlb olunması mümkündür.

4.5. Komissiya üzvləri monitorinqin təşkilinə dair təlimatlandırıldıqdan sonra monitorinqdə iştirak etmək hüququ qazanır.

4.6. Monitorinq dərs zamanı əyani şəkildə və ya video müşahidə əsasında təşkil edilir.

4.7. Komissiya işini əvvəlcədən müəyyənləşdirilmiş meyarlar əsasında aparır və monitorinqin keçirildiyi yekun tarixdən 15 iş günü ərzində Tədris-metodiki Şuraya fərdi və yekun hesabatı təqdim edir.

4.8. Komissiyanın səlahiyyət müddəti onun yaradılması haqqında müvafiq əmrlə müəyyən edilir.

V. Monitorinq iştirakçıları, onların hüquq və vəzifələri

5.1. Monitorinq iştirakçılarına aiddir: akademik heyət üzvləri (1 və ya 0.5 ştat vahidi olaraq Universitetdə azı bir il professor-müəllim heyəti kimi çalışan şəxslər), Monitorinq komissiyası və tələbələr.

5.2. Komissiya üzvləri Monitorinq prosesində aşağıdakı hüquqlara malikdir:

5.2.1. Monitorinq aparmaq məsədilə video qeydiyyatı əldə etmək və monitorinq fəaliyyətinin tələb etdiyi digər imkanlardan istifadə etmək;

5.2.2. Monitorinq prosesinin səmərəli təşkili üçün rəy və təklifləri bildirmək;

5.2.3. Monitorinq aparılacaq fənnin sillabusu, fənn proqramı və müvafiq təhsil proqramı ilə tanış olmaq.

5.3. Komissiya üzvləri Monitorinq prosesində aşağıdakı vəzifələri icra etməlidir:

5.3.1. Monitorinq təşkilinə dair təlimdə iştirak etmək;

5.3.2. Monitorinq olunacaq fənn üzrə sillabus, fənn proqramı və müvafiq təhsil proqramı ilə tanış olmaq;

5.3.3. Meyarlar üzrə təqdim edilmiş blankda (Əlavə 2) təlim prosesi ilə əlaqədar qiymətləndirməni obyektiv və dolğun şəkildə aparmaq;

5.3.4. Monitorinqin yekununda qiymətləndirmə blankını imzalı şəkildə Keyfiyyət təminatı şöbəsinə təqdim etmək;

5.3.5. Monitorinq komissiyası tərəfindən hazırlanacaq yekun hesabatının tərtibi prosesində iştirak etmək;

5.3.6. Qiymətləndirmə prosesinə aid məlumatları konfidensial saxlamaq;

5.3.7. Tədris prosesinin gedişatına və Monitorinq prosesinin subyektlərinə hörmətlə yanaşmaq.

5.4. Professor-müəllim heyətinin üzvləri Monitorinq prosesində aşağıdakı hüquqlara malikdir:

5.4.1. Təlim prosesini sərbəst şəkildə təşkil etmək;

5.4.2. Monitorinqin keçirilməsi qaydaları haqqında məlumat almaq;

5.4.3. Monitorinq nəticələrinə dair komissiyanın rəyi ilə tanış olmaq;

5.4.4. Monitorinq komissiyasının üzvü olmaq üçün namizədliyini irəli sürmək.

5.5. Professor-müəllim heyətinin üzvləri Monitorinq prosesində aşağıdakı vəzifələri icra etməlidir:

5.5.1. Video müşahidəsinin aparılmasına şərait yaratmaq;

5.5.2. Komissiya tərəfindən təklif olunan tövsiyələrin icrasında iştirak etmək.

5.6. Monitorinq tədbirləri elə təşkil olunmalıdır ki, təlim prosesinin təbii nizamına maneə olmasın.

VI. Yekun müddəalar

6.1. Monitorinqin nəticələri kafedra iclasında, fakültə Tədris-Metodiki Şurasında müzakirə edilir.

6.2. Monitorinq komissiyası Monitorinq nəticələrinə dair hesabat hazırlayır. Bunun əsasında Tədris-metodiki Şura yekun hesabatı hazırlayır və təkmilləşdirmə üçün təklifləri verir.

6.3. Yekun hesabat əsasında Monitorinq prosesində iştirak etmiş professor-müəllim heyət üzvünə müvafiq təkmilləşdirmə istiqamətli məsləhət verilir, zərurət yarandığı halda təkrar monitorinq təşkil olunur.

Hazırki Prosedur 14 fevral *20*23*cü il tarixli Elmi Şura iclasında* 4 *№-li protokolla təsdiq olunmuşdur.*

Əlavə 1. Monitorinq qrafiki

№	Akademik heyət üzvü (ASA)	Kafedra	Tarix	Qrup	Fənnin adı
1.					
2.					
3.					
4.					
5.					
6.					
7.					
8.					
9.					
10.					

Əlavə 2. Qiymətləndirmə cədvəli

Akademik heyət üzvünün ASA: _____

Akademik heyət üzvünün vəzifəsi, elmi dərəcəsi və elmi adı: _____

Qrup: _____

Fənnin adı: _____

Dərsin mövzusu: _____

Dərsin növü: ☐ Mühazirə ☐Seminar ☐Praktiki məşğələ

Meyarlar üzrə qiymətləndirmə					
№	Meyar	Tamamilə uyğundur	Uyğundur	Qismən uyğundur	Uyğun deyil
1.	**Fənnin təlim nəticələri**	Müəllim dərsdən gözlənilən *bütün* təlim nəticələrini aydın çatdırır, mövzunun və fənnin təlim məqsəd və nəticələrini əlaqələndirir, dərsi təlim nəticələrinə *tamamilə* uyğun təşkil edir.	Müəllim dərsdən gözlənilən *əksər* təlim nəticələrini izah edir, mövzunu və fənnin təlim məqsəd və nəticələrini əsasən əlaqələndirir, dərsi *əksər* təlim nəticələrinə uyğun təşkil edir.	Müəllim mövzunu və fənnin təlim məqsəd və nəticələrini *qismən* əlaqələndirir, dərsi *qismən* təlim nəticələrindən kənar istiqamətdə təşkil edir.	Müəllim dərsdən gözlənilən təlim nəticələrini izah etməkdə, mövzunu fənnin təlim məqsədi və nəticələri arasında əlaqələndirməyə çətinlik çəkir, dərsin *əksər hissəsini* təlim nəticələrindən kənar istiqamətdə təşkil edir.
		☐	☐	☐	☐
		1-ci meyar üzrə komissiya üzvünün rəyi:			

2.	**Tələbələrlə ünsiyyət**	Müəllim dərs müddətində *bütün tələbələri* diqqətlə dinləyir, dəyər verdiyini göstərir onların suallarına aydın və dolğun cavab verir və *bütün* auditoriyanın müzakirələrdə iştirak etməsinə, fəal dinləyici olmasına nail olur.	Müəllim dərs müddətində tələbələri dinləyir, *əksər* suallara cavab verir, auditoriyanı müzakirələrə qoşulmağa və dinləyici olmağa cəlb edir.	Müəllim dərs müddətində tələbələri *qismən* dinləyir, *bəzi* sualları cavablandırır, müzakirə aparmaqda *çətinlik çəkir.*	Müəllim dərs müddətində tələbələri dinləməkdə, suallarını cavablandırmaqda *çətinlik çəkir, əksər hallarda* auditoriyanı müzakirələrə *cəlb etmir.*
		☐	☐	☐	☐
		2-ci meyar üzrə komissiya üzvünün rəyi:			
3.	**Tələbə fəallığını və mənimsəməsini təşviq edən strategiyalar**	Müəllim tələbələrin dərsdə eşitdiklərini öz təcrübələri ilə əlaqələndirmələrini *fəal təşviq edir,* tələbələri mövzu barəsində əlavə mənbələri/məlumatları araşdırmağa həvəsləndirir, tələbələri öz fikirlərini bölüşməyə təşviq	Müəllim tələbələrin dərsdə eşitdikləri ilə təcrübələrini əlaqələndirməyə *dəvət edir,* tələbələrin mövzu barəsində əlavə məlumatları araşdırmalarına, dərs zamanı fikirlərini bölüşmələrinə təşviq edir.	Müəllim tələbələrin dərsdə eşitdiklərini öz təcrübələri ilə əlaqələndirmələrinə *qismən nail olur.* Onları əlavə araşdırmalara, fikirlərini bölüşmələrinə *əsasən* təşviq edir.	Müəllim tələbələrin dərsdə öyrəndiklərini öz təcrübələri ilə əlaqələndirmələrinə təşviq etməkdə *çətinlik çəkir,* onların fikirlərini bölüşmələrinə, əlavə araşdırmalar aparmalarına *tam təşviq etmir.*

		edir, dərs zamanı tələbələri tənqidi düşünməyə həvəsləndirir.			
		☐	☐	☐	☐
		3-cü meyar üzrə komissiya üzvünün rəyi:			
4.	**Təşkilatçılıq və təqdimat**	Müəllim rəqəmsal həllər, avadanlıq və məkandan, o cümlədən vizual təqdimatdan və audio-vizual dəstəkçi vasitələrdən *səmərəli istifadə edir.*	Müəllim avadanlıq,o cümlədən vizual təqdimatdan və audio-vizual vasitələrdən *ümumi şəkildə istifadə edir.*	Müəllim rəqəmsal həllər, avadanlıq və məkandan, o cümlədən vizual təqdimatdan *qismən istifadə edir.*	Müəllim rəqəmsal həllər, avadanlıq və məkandan, o cümlədən vizual təqdimatdan və audio-vizual dəstəkçi vasitələrdən istifadə etməkdə *çətinlik çəkir.*
		☐	☐	☐	☐
		4-cü meyar üzrə komissiya üzvünün rəyi:			

5.	**Məzmunun kommunikasiyası**	Müəllim dərs materiallarını aydın izah edir, auditoriyadan nə gözlənildiyini *aydın ifadə edir.* Cari mövzuda keçilənləri əvvəlki mövzularda öyrənilənlərlə əlaqələndirir, dərsi elmi ədəbiyyatla və bir sıra digər müvafiq məlumat mənbələr ilə əlaqələndirir.	Müəllim dərs materiallarını izah edir. Cari mövzuda keçilənləri *əksər hallarda* əvvəlki mövzularda öyrənilənlərlə əlaqələndirir, dərsi əsas elmi ədəbiyyat və digər müvafiq məlumat mənbələr ilə əlaqələndirir.	Müəllim dərs materiallarını qismən izah edir. Cari mövzuda keçilənləri əvvəlki mövzularda öyrənilənlərlə *qismən əlaqələndirir*, dərsi elmi ədəbiyyatla və digər müvafiq məlumat mənbələrilə *qismən əlaqələndirir.*	Müəllim dərs materiallarını izah etməkdə, auditoriyadan nə gözlənildiyini ifadə etməkdə *çətinlik çəkir.* Nadir hallarda cari mövzuda keçilənləri əvvəlki mövzularda öyrənilənlərlə əlaqələndirməkdə, dərsi elmi ədəbiyyatla və digər müvafiq məlumat mənbələr ilə əlaqələndirməkdə *çətinlik çəkir.*
		☐	☐	☐	☐
		5-ci meyar üzrə komissiya üzvünün rəyi:			

Yekun rəy (təklif və tövsiyələr):

Komissiya üzvünün ASA: Komissiya üzvünün imzası: Tarix: